SEYFULLA AZƏR

# SİNTEZATORDA İFAÇILIQ TƏDRİSİ

**Hər yaşda, hər kəs üçün**

- ✓ Musiqi nəzəriyyəsi
- ✓ Qammalar, arpeciolar
- ✓ Milli və xarici musiqilər
- ✓ Muğamlar, rənglər, təsniflər
- ✓ Harmoniyalar, akkordlar

BAKI – 2022

**Redaktor və bədii tərtibatçı:**
**Rüstəm**

**Rəyçilər:**

**Həqiqət Məhərrəmova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor, piano müəllimi

**Qurbanov Qorxmaz**
Azərbaycan respublikasının əməkdar artisti, pianoçu

Seyfulla Azər. Sintezatorda ifaçılıq tədrisi
Bakı, 2022, 123 səh.

Bu kitab türk musiqi dünyasında elektron musiqi aləti olan sintezatorun tədrisi üçün xüsusi hazırlanmış ilk universal vəsaitdir. Kitabda müasir musiqi alətinin tədrisi üçün müasir tədris metodu tətbiq olunmuş və sintezator üçün ilk dəfə musiqi nəzəriyyəsi və Muğam dərsləri tərtib edilmişdir. Yaşından asılı olmayaraq musiqi tədrisinə yeni başlayanlar, həvəskarlar, digər musiqi alətlərində ifa edən peşəkar musiqiçilər və başqaları hazırki vəsaiti öz öyrənmə tempinə uyğunlaşdıra biləcəkdir.

**Email:** heybetli.seyfi@gmail.com

Bu kitab Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçmişdir və müəlliflik hüquqları ilə qorunur. Kitabdan tam və ya qismən istifadə edildikdə, ona istinad etmək vacibdir. **Müəllifin** rəsmi razılığı olmadan kitabın və ya onun hər hansı bir hissəsinin çapı **qadağandır.**

**© Seyfulla Azər / 2022**

***Mərhum müəllimim***

***Babayev Ərəstun Mirzə oğlunun***

***əziz xatirəsinə ithaf edirəm***

# MÜNDƏRİCAT

**Elektron musiqi aləti – Sintezator və onun müasir musiqi tədrisində yeri** .......... 6
**Sintezatorun yaranma və inkişaf tarixi** .......... 9
**Müəllifdən oxucuya** .......... 12
**P R O Q R A M** .......... 17
**Sintezator qarşısında düzgün oturuş və əllərin klaviatura üzərində düzgün qoyuluş qaydası** .......... 17
**Müxtəsər musiqi nəzəriyyəsi** .......... 19

**Musiqi səsləri haqqında ümumi anlayış** .......... 19
**Səs düzümü və oktavalar** .......... 20
**Not sətri və notların yazılışı** .......... **Ошибка! Закладка не определена.**
**Açarlar və əlavə xətlər** .......... **Ошибка! Закладка не определена.**
**Səslərin uzunluğu və nöqtəli not** .......... **Ошибка! Закладка не определена.**
**Xanə, xanə xətti və xanə ölçüləri** .......... **Ошибка! Закладка не определена.**
**Pauzalar** .......... **Ошибка! Закладка не определена.**
**Yarımton və ton** .......... **Ошибка! Закладка не определена.**
**Alterasiya işarələri** .......... **Ошибка! Закладка не определена.**
**Enharmonik səslər** .......... **Ошибка! Закладка не определена.**
**Temp və əsas terminləri** .......... **Ошибка! Закладка не определена.**
**Dinamik işarələr** .......... **Ошибка! Закладка не определена.**
**İntervallar və onların adları** .......... **Ошибка! Закладка не определена.**
**Lad anlayışı** .......... **Ошибка! Закладка не определена.**
**Qammalar** .......... **Ошибка! Закладка не определена.**
**Tonallıq** .......... **Ошибка! Закладка не определена.**
**Akkordlar** .......... **Ошибка! Закладка не определена.**

**Sintezatorun istifadəsi üçün təlimat (1)** .......... 21
**Sintezatorun istifadəsi üçün təlimat (2)** .......... **Ошибка! Закладка не определена.**
**Major və minor qammalar sistemi** .......... 22
**Azərbaycan muğamları** .......... 23

**Azərbaycan Muğamları haqqında** .......... 23
**Azərbaycan muğam ladları** .......... **Ошибка! Закладка не определена.**
**Azərbaycan muğam ladları, şöbə, rəng və təsniflərinin müxtəsər şərhi** .......... 25

RAST .......... **Ошибка! Закладка не определена.**
ŞUR .......... **Ошибка! Закладка не определена.**
SEGAH .......... **Ошибка! Закладка не определена.**
ÇAHARGAH .......... **Ошибка! Закладка не определена.**
BAYATI-ŞİRAZ .......... **Ошибка! Закладка не определена.**
ŞÜŞTƏR .......... **Ошибка! Закладка не определена.**
HUMAYUN .......... **Ошибка! Закладка не определена.**

**Müşayiət dərsləri – Harmoniyalar** .......... 26

**D Ə R S L Ə R**.......................................... 27

I Ay.......................................... 27
II Ay.......................................... **Ошибка! Закладка не определена.**
III Ay.......................................... **Ошибка! Закладка не определена.**
IV Ay.......................................... **Ошибка! Закладка не определена.**
V Ay.......................................... **Ошибка! Закладка не определена.**
VI Ay.......................................... **Ошибка! Закладка не определена.**
VII Ay.......................................... **Ошибка! Закладка не определена.**
VIII Ay.......................................... **Ошибка! Закладка не определена.**
IX ay.......................................... **Ошибка! Закладка не определена.**

**İkinci dərs ili**.......................................... **Ошибка! Закладка не определена.**

I ay.......................................... **Ошибка! Закладка не определена.**
II Ay.......................................... **Ошибка! Закладка не определена.**
III Ay.......................................... **Ошибка! Закладка не определена.**
IV Ay.......................................... **Ошибка! Закладка не определена.**
V Ay.......................................... **Ошибка! Закладка не определена.**
VI Ay.......................................... **Ошибка! Закладка не определена.**
VII Ay.......................................... **Ошибка! Закладка не определена.**
VIII Ay.......................................... **Ошибка! Закладка не определена.**
IX Ay.......................................... **Ошибка! Закладка не определена.**

**Üçüncü dərs ili**.......................................... **Ошибка! Закладка не определена.**

I Ay.......................................... **Ошибка! Закладка не определена.**
II Ay.......................................... **Ошибка! Закладка не определена.**
III Ay.......................................... **Ошибка! Закладка не определена.**
IV Ay.......................................... **Ошибка! Закладка не определена.**
V Ay.......................................... **Ошибка! Закладка не определена.**
VI Ay.......................................... **Ошибка! Закладка не определена.**
VII Ay.......................................... **Ошибка! Закладка не определена.**
VIII Ay.......................................... **Ошибка! Закладка не определена.**
IX Ay.......................................... **Ошибка! Закладка не определена.**

**Azərbaycan bəstəkarları**.......................................... 28

# Elektron musiqi aləti – Sintezator və onun müasir musiqi tədrisində yeri

Bir çox yüzilliklər ərzində akustik musiqi alətləri istifadə olunmuş və not yazısı musiqinin yeganə qeyd etmə üsulu olmuşdur. Elektron səs qeyd edən cihazların və elektron musiqi alətlərinin meydana gəlməsi musiqi dünyasında prinsipial olaraq yeni imkanlar açmışdır. Müasir elektron musiqi alətlərinin meydana gəlməsinin bir-birilə əlaqəli iki əsas səbəbi var. **Birincisi,** musiqiçilərin musiqi yaradıcılığı palitrasını zənginləşdirmək təşəbbüsü, **ikincisi** isə bu təşəbbüsü təmin etmək məqsədilə ixtiraçıların musiqi alətlərini təkmilləşdirmək səyləridir. Musiqili səsin yaranması texnologiyası sahəsində müasir elmin və texnikanın nailiyyətlərinə əsaslanmağa can atılır. Bütün yaradıcılıq sahələrində olduğu kimi musiqi yaradıcılığında da musiqiçilərin zaman-zaman böyüyən və genişlənən yaradıcılıq potensialının realizə olunmasını təmin etmək məqsədilə yeni imkanlar axtarışı elektron musiqi alətlərinin yaradılmasına gətirib çıxarmışdır ki, sintezator aləti onların içində birinci yerdə dayanır. Klassik və müasir ifa üslubları üçün son dərəcə əlverişli olan sintezator istər həvəskar, istər professional musiqiçilərin qarşısında istənilən janrda yaradıcılıq üçün geniş imkanlar yaradır. Rusiyanın tanınmış bəstəkarı Eduard Artemyev etiraf etmişdir ki, "sintezator qarşısında ənənəvi musiqi tərbiyəsinə malik musiqiçi üçün istiqamət götürmək olduqca çətindir. Sözün əsl mənasında, onun üzərinə nəhəng səslər dünyası düşür ki, o, çox vaxt onu öz yaradıcılığı üçün mənimsəyib sistemləşdirməyə hazır deyil..."

Müasir texnikanın sintezatora bəxş etdiyi geniş səs sekvenseri, avtomatik akkompanementlər ifa olunan ən fərqli janrların səslənməsini ansambla, hətta orkestra yaxınlaşdırır. Sintezatorda cəmləşmiş çoxvariantlı musiqi stilistikası istənilən alətin partiyasını (bas-gitara, gitara, fortepiano, zərb alətləri, mis və ya taxta nəfəsli alətlər, simli alətlər və s.) ifa etməyə şərait yaradır, onların orkestr palitrasındakı rolunu təyin etməyə və ya ayrıca qeyd edib dinləməyə imkan verir. İfaçı ifa etməyə hazırlaşdığı musiqi əsərini əvvəlcədən səsyazma funksiyası ilə qeyd edib, sekvensiyasını, pauzalarını, tempini, səslərin gücünü, ritmin barabanlarını və onların səslənmə gücünü və s. bir çox effektləri müşahidə edə və nizama sala bilər. Sintezatorun bu kimi bir çox mühüm funksiyaları ifaçıya və ya tələbəyə musiqili fikrin məntiqini, emosiyalarını dərindən dərk etməyə və onda canlanan obrazı aydın hiss etməyə kömək edir. Bütün bunlar musiqiçinin imkanlarını klassik və müasir yaradıcılıq elementləri

ilə zənginləşdirir. Bir musiqi alətində onlarla fərqli musiqi alətinin səslərinin toplanması sintezator ifaçısına bu alətlərin hər birinin nəfəsini, tembrini, tələb etdiyi ifa üslubunu öz ifasında "dadmağa" kömək edir. Bu da musiqiçinin professionallığının artması, təkmilləşməsi üçün ideal şəraitdir.

Sintezatorun yuxarıda sadalanan bəzi funksionallıq imkanları göstərir ki, sintezatorun tədrisi üçün klassik və müasir tədris metodlarını balanslaşdırmış pedaqoqların hazırlanması musiqi təhsilinə cavabdeh orqanların qarşısında aktual məsələlərdən biri olmalıdır.

Müasir zamanın musiqi yaradıcılığında sintezatora tələbat getdikcə artır. Hətta bir ansamblda artıq bir sintezatorla kifayətlənməyib, iki və ya bir neçə sintezatorla çalışmağa üstünlük verilir. Lakin sintezatorun yaranması zamanından bu günümüzə qədər bir çox dünya ölkələrində olduğu kimi doğma Azərbaycanımızda da sintezatorun sistemləşmiş tədrisi yoxdur. Sintezatorun tədrisi üçün sistemləşmiş tədris vəsaitinin olmaması səbəbindən mədəniyyət evlərində, klublarda, asudə vaxt mərkəzlərində və s. özəl tədris mərkəzlərində təşkil olunmuş sintezator kurslarında pedaqoqlar sintezatorun tədrisinə öz fərdi yanaşmalarını tətbiq edirlər. Sintezatorda ifa etməyi mənimsəmiş fortepiano, qarmon, akkordeon müəllimləri güclü pededoqlar olaraq tələbəyə istər-istəməz sintezatorun tələb etdiyi ifa üslubundan fərqlənən öz ifa üslublarını öyrətmiş olurlar. Nəticədə isə tələbə ya yalnız milli musiqini müəyyən qədər solo ifa etməyi öyrənir, ya da klassik ifaçı üslubuna malik pianist kimi formalaşır. Əlbəttə ki, bu çox gözəldir. Lakin bu, tələbənin sintezatorda potensialını tam realizə edə bilməsinə məhdudiyyət yaradır. Hər iki halda müasir musiqi alətinin tələb etdiyi tədris realizə olunmur. Nəticədə tələbə ilə sintezator arasında çox səthi münasibət qurulur...

**Bu vəsait kimlər üçün nəzərdə tutulub?** "Sintezatorda ifaçılıq tədrisi" kitabı 10 yaşından başlayaraq sintezatorda ifa etməyi öyrənmək istəyən hər kəs üçün hazırlanmış universal kitabdır. Sintezator kompüter sistemli, çoxfunksiyalı musiqi aləti olduğu üçün onun idarəçiliyinə və ifa zamanı eyni anda bir neçə funksiyanın yerinə yetirilməsinə cavabdeh olan sintezator ifaçısı üçün təyin olunmuş minimal yaş həddi 10 yaşdan başlayır.

Yalnız uşaqlar deyil, musiqi tədrisinə yeni başlayanlar, digər musiqi alətlərində ifa edən həvəskar və ya professional musiqiçilər də bu vəsait sayəsində sərbəst çalışaraq çox qısa zamanda sintezatorda ifa etməyi mənimsəyəcəklər. Klassik və milli ifa üslublarını müasir yaradıcılıq elementləri ilə zənginləşdirmək istəyən pianino, akkordeon, qarmon və s.

klavişli alətlərin ifaçıları bu vəsait sayəsində ən qısa zamanda sintezatorun yaradıcılıq imkanlarını mənimsəyərək ifalarına yeni və ecazkar nəfəs qata biləcəklər.

Uzun illərdir ki, sintezator üçün sistemli tədris vəsaitinin olmaması səbəbindən tədris zamanı şagirdlərlə işin fərqli çətinlikləri ilə üzləşmək məcburiyyətində idik. Bu çətinlikləri həll etmək təşəbbüsü hazırki tədris vəsaitinin ərsəyə gəlməsi üçün təkan oldu. Hazırki vəsait klassik tədris metodunu, zəngin Azərbaycan musiqisi tədrisinin tələb etdiyi özünəməxsus yanaşmanı, tədris zamanı sintezatorun tələb etdiyi müasir yanaşmanı, şagirdlərin tədris prosesindəki gözləntilərini və öz təcrübəmizdə formalaşmış effektiv tədris metodlarını özündə sistemli şəkildə birləşdirir.

Hazırki vəsait sintezator dərnəyində çalışan müəllimlərin tədrisetmə işini daha rahat və ən əsası sistemli və effektiv etməkdə böyük rol oynayacaq. Həmçinin tələbələrin dərs prosesində sistemli, məqsədyönlü və effektiv olmalarına da böyük köməklik edəcək. **Hazırki vəsait 3 illik sintezator kursu üçün nəzərdə tutulmuşdur.**

Sintezator aləti professional musiqiçilər arasında öz yerini möhkəmlətmiş olsa da, müasir musiqi təhsilində hələ ki öz yerini lazımi qaydada tapa bilməyib. Bu geniş imkanlı alətdə professional musiqiçilərə tələbat ildən ilə artır.

Bütün musiqi alətləri kimi sintezator da primitiv inkişaf mərhələlərini keçərək təkmilləşmiş və bu gün hələ də inkişafının çiçəklənmə dövrünü yaşamaqdadır. O, sadə uşaq mahnılarından tutmuş böyük musiqi əsərlərinin ifası üçün lazım olan bütün imkanlara malikdir. Əsrlərlə təkmilləşmiş və artıq bütün imkanları məlum olan bir çox təksəsli musiqi alətlərindən fərqli olaraq bu gün də sürətlə təkmilləşməkdə olan sintezatorun qarşımızda açdığı imkanların hamısı realizə olunmur. Ən maraqlısı isə odur ki, biz elektron musiqi aləti olan sintezatorun yaranması və təkmilləşməsi dövründə yaşayırıq. Hələ bu alətin zaman-zaman təkmilləşərək qarşımızda necə fantastik yaradıcılıq imkanları açacağını heyrətlə təxmin edirik...

# Sintezatorun yaranma və inkişaf tarixi

Sintezatorların tarixi XIX əsrin sonlarından başlayır. Biz burada onların hamısını qeyd etməyəcəyik, onların yaranma və təkmilləşmə mərhələlərini əks etdirən bir neçə nümunəsi ilə musiqisevərləri tanış edəcəyik.



Şəkil 1

İlk dəfə amerikalı ixtiraçı Elişa Qrey 1876-cı ildə iki oktavadan ibarət royal klaviaturası və qoşulma dinamiki olan **musiqili teleqraf** icad etmişdir (şəkil 1). Bu ixtira təcrübi əhəmiyyət əldə etməmişdir, çünki elektrik cərəyanının imkanlarını nümayiş etdirən alət sayılırdı.

İyirmi ildən sonra, 1897-ci ildə başqa bir amerikalı ixiraçı Taddues Kahill elektriklə işləyən **Telarmonium (Telharmonium)** adlı ilk çoxsəsli musiqi alətini yaratdı (şəkil 2). Sintezatorların əcdadla-rından biri sayılan Telar-monium nəhəng qabaritə malik olmaqla bərabər bir neçə ton çəkiyə malik idi. Çəkinin əsas hissəsi yüz qırx beş dinamikin payına düşürdü.



Şəkil 2

Bu alət daşınması qeyri-mümkün olduğundan populyarlıq əldə etmədi. Cəmi 3 ədəd belə alət istehsal olunmuşdur.

1935-ci ildə daha bir ABŞ ixtiraçısı Lourens Hammond kilsə orqanlarının alternativi sayılan, elektriklə işləyən **Hammond A** adlı klavişli musiqi alətini yaratdı (şəkil 3). 1935-ci il aprelin 15-də ixtiraçı Hammond A alətini Çikaqoda keçirilən sərgidə təqdim etdi. Ölçülərinin nisbətən kiçik olması bu alətin popuyarlaşmağına imkan yaratdı. Lakin bu alətin qiyməti bu gün bizim vərdiş etdiyimiz sintezatorların qiymətindən çox baha, iş prinsipi isə bu günkü sintezatorların iş prinsipindən xeyli mürəkkəb idi. Buna baxmayaraq öz dövründə kilsələrdə və evlərdə istifadə olunan çoxsəsli musiqi aləti rolunu oynayırdı.



Şəkil 3

Keçən əsrin 50-ci illərində formaları və iş prinsipləri müasir sintezatorlara uyğun, yeni tembrlar yaratmaq imkanları olan sintezatorlar hazırlanmağa başlandı. Sintezatorların sənayedə kütləvi şəkildə istehsalı isə Robert Muqun qiymətcə nisbətən daha ucuz alətlər yaratmasından sonra başladı. Bu alətlərin ən ucuzu 7000 ABŞ dollarına satılırdı. Onlardan ən məşhuru isə qiyməti cəmi 1500 ABŞ dolları olan **Minimuq (Minimoog)** sintezatoru idi (şəkil 4). Təcrübədə istifadəsi olduqca rahat olan Minimoog sintezatoru XX əsrin sonlarına qədər istifadə olunurdu.



Şəkil 4

Sintezatorların yaranma və təkmilləşmə tarixində uzun zaman populyarlıq zirvəsini fəth etmiş alət 1976-ci ildə Yamaha firması tərəfindən istehsal olunmuş əfsanəvi **Yamaha CS80** idi (şəkil 5). Yamaha şirkəti bu nailiyyəti ilə kifayətlənmədi. O, bu gün də sintezator istehsalı tarixində özünə məxsus yenilikləri ilə iz qoymağa davam edir.


Şəkil 5

Korg – Yaponiyanın elektron musiqi alətləri, aksessuarlar və səsyazma studiyaları üçün avadanlıqlar istehsal edən özəl şirkətidir. Şirkətin əsası 1962-ci ildə gecə klubunun sahibi və klubun akkordeon ifaçısı tərəfindən birgə qoyulub. Musiqi dünyası üçün istehsal etdiyi alətlər arasında ən populyarı sintezatorlar olmuşdur. Korg XX əsrin ortalarından etibarən bir neçə növdə sintezator istehsal edərək böyük şirkətə çevrilmişdir. Korgun “i 3”, “triniti” “triton”, “pa 50”, “pa 800” versiyaları dünyanın professional musiqiçilərinin rəğbətini qazanmışdır.



Şəkil 6

Bu siyahının sonunda isə Korg şirkətinin hazırki dövrdə olan "şah əsəri"ni təqdim edirik (şəkil 6).

İstənilən ifa üslubunda Korg Pa 4x sintezatoru ifaçının əlində canlanan, ən müasir və ən professional alətlərdəndir. Korgun Pa seriyası illərdir ki, yarandığı dövrün uğurlu sintezatoru titulu ilə musiqiçilərə xidmət edib. 2014-cü ildə Korg bir daha keyfiyyət standartlarını daha zəngin, daha real səslərlə yüksəltdi. İstifadəsi intuitiv səviyyədə rahat və aydın olan Pa 4x sintezatoru müasir dövrün ən professional aranjiman alətidir.

Zaman sürətlə keçir və hər sahədə olduğu kimi musiqi alətlərinin inkişafı və təkmilləşməsi sahəsində də elmi-texniki inkişaf öz əksini tapmaqla yaradıcı insanları və musiqisevərləri sevindirməyə davam edir. Nord, Yamaha, Roland, Korg və s. nəhəng sənaye şirkətləri texniki inkişafın bütün imkanlarından istifadə edərək, daha professional sintezatorlar yaratmaqda bir-birilə yarışırlar.

# Müəllifdən oxucuya

**Əziz musiqi həvəskarları!**

Sahibi olduğunuz bu vəsait Sizi "qısa müddətdə yüksək effektivlik" şüarı və qərarı ilə 3 illik maraqlı tədris yoluna çıxmağa dəvət edir.

**Nə üçün məhs belə bir şüar və qərarla?** Cavabı olduqca sadədir. Çünki ömrümüz çox qısadır və onu effektiv və məhsuldar yaşamaq istəyən hər kəs zamanı ciddi nəzarət altına almalıdır! Həyat təcrübəsi göstərir ki, ciddi və aydın məqsədsiz akademik musiqi tədrisinə qədəm qoyan bir çox musiqi həvəskarları 5 il orta musiqi məktəbi, 3 il musiqi kolleci və 4 il ali musiqi təhsili ocağında təhsil aldıqdan sonra da musiqi həvəskarı mövqeyini tərk edə bilmir. Professional musiqiçi olmaq üçün sadəcə təhsil almaq kifayət etmir. Məqsədyönlü şəkildə işlək inkişaf formulası əsasında nəzəri və təcrübi çalışmaq tələb olunur. Sizin isə qarşınızda 3 il zamanınız var. Odur ki, bu şüar mahiyyət kəsb edən şüardır!

Hazırki vəsait hər dərs ili doqquz aydan ibarət olmaqla üç tədris ilinə bölünüb, ümumi iki yüz on altı dərsdən ibarətdir. Bu dərslərin 43-ünü musiqi nəzəriyyəsi, 112-sini (xalq mahnıları, bəstəkar mahnıları, Muğam rəngləri və təsnifləri və başqa xalqların da musiqiləri daxil olmaqla) mahnılar, 30-unu milli rəqslər, 25-ini Muğam dərsləri, 36-sını müşayiət dərsləri, 9-unu isə keçirilmiş dərslərin təkrarı ilə imtahanlar təşkil edir. Bu şəkildə sintezator ifaçısı musiqi nəzəriyyəsi ilə yanaşı Azərbaycan muğamlarının əsaslarını və onları ifaetmə bacarığını mənimsəyir, xalq mahnılarını, rəqsləri, təsnif və rəngləri və dünya xalqlarının musiqilərini solo ifa etməyi öyrənir, musiqilərin müşayiətini (hətta sərbəst məşğul olmaqla) öyrənmiş olur.

Hər bir sahədə professionallığın və yaradıcılığın əsasında güclü texniki hazırlıq durur. Musiqi yaradıcılığına yiyələnmək istəyən hər kəsdən də ilk öncə güclü texniki hazırlıq tələb olunur. Sürətli inkişaf texniki qaydaları mükəmməl mənimsəməklə əldə olunur. Növbəti mərhələdə intellektual biliklərə sahib olmağınız və onları təcrübədə tətbiq etməyiniz tələb olunur ki, bunların sayəsində üçüncü mərhələdə qarşınızda yaradıcılıq imkanları açılır. Hazırki vəsait klassik tədris metoduna intensiv yanaşma əlavə edərək, Sizi öncə iradə göstərərək güclü texniki hazırlıq keçməyə dəvət edir və paralel olaraq intellektual bilikləri öyrənməyə və onları tətbiq etməyə çağırır. Bu iki mərhələ qısa müddətdə musiqi yaradıcılığınız üçün möhkəm bünövrə rolunu oynayacaq.

**Qısa müddətdə yüksək effektivlik üçün nə etməli?**

Birmənalı olaraq bilməlisiniz ki, inkişafınız səyləriniz qədər olacaq. Necə səylər? Məqsədyönlü və daimi səylər! Bu səbəbdən də hələ yolun əvvəlində Sizdən məqsəd təyin etməyiniz və onun həyata keçməsi üçün qəti qərar verməyiniz tələb olunur!

**Məqsədyönlü səylər dedikdə nə nəzərdə tutulur?**

Konkret olaraq təyin olunmuş tapşırığın tamamilə həyata keçməsinə fokuslanıb, onu 100% sona çatdırmaq deməkdir! Bu, yaradıcı şəxsin təbii həyat tərzidir!

**Necə bir texniki hazırlıq tələb olunur?**

**Birincisi**, istər müəllimin rəhbərliyi altında, istərsə də sərbəst öyrənmə prosesində "Major və minor qammalar sistemi" ilk altı ayda mükəmməl şəkildə nəzəri və təcrübi mənimsənilməli və reflektor biliyə çevrilməli!

**İkincisi**, cəmi 24 növ olan "üçsəsli sadə major və minor akkordları" ilk 3 ayda mükəmməl şəkildə nəzəri və təcrübi mənimsənilməli və reflektor biliyə çevrilməli!

**Üçüncüsü**, "I və II növ arpeciolar" ilk altı ayda mükəmməl şəkildə nəzəri və təcrübi mənimsənilməli və refloktor biliyə çevrilməli!

Bu sadalananlara proqramda verilmiş qanonlar, septakkord, xromatik qamması kimi digər qamma növləri də aiddir!

Bu şərtlərin həyata keçməsi üçün dərslikdə sadə formada qammalar, akkordlar və arpeciolar cədvəllər formasında təşkil olunub. Bu, təcrübədə məşqlərin operativliyini və rahatlığını təmin edəcəkdir!

Musiqiçini professional musiqiçi edən onun **hər gün** arasıkəsilməz məşqləridir. Bu məşqlər musiqi tədrisinə başlamaqla başlanır və musiqi ilə məşğul olduğunuz təqdirdə heç zaman dayandırılmır! Bu məşqlər sonradan ansambl şəklində məşqlərlə əvəzlənməli, lakin fərdi məşqlər də davam etdirilməlidir. Məşqlər ilk 2 saat ifadan sonra başlayır. İlk 2 saat olunan məşq **məşq sayılmır**, yalnız məşq etmək üçün texniki hazırlaşmaq prosesi sayılır ki, burada emosiyalarınız, intellektiniz, barmaqlarınız musiqi ilə məşğul olmaq üçün hazır vəziyyətə gətirilir...

Birinci tədris ilində **hər gün** 4 saatdan az olmayan, ikinci tədris ilində 6 saatdan az olmayan, üçüncü tədris ilində isə 8 saatdan az olmayan məşqlər tələb olunur.

Hər bir qammanın, akkordun və arpecionun məşqinə **"YÜZ DƏFƏ AZDIR"** münasibəti və qərarı ilə başlamaq və müvafiq olaraq realizə etmək

texniki hazırlığın ideal prosesidir! Qammaların, akkordların və arpecioların reflektor biliyə çevrilməsi üçün bu vacib şərtdir. İlk 2 saat məşqin 75%-ni qammaların, arpecioların və akkordların məşqi təşkil etməlidir! Bu zaman qammaların və arpecioların dərsdə keçdiyiniz şablonlarıyla bərabər öz fantaziyanıza uyğun məşqlərini də təşkil etməyiniz arzuolunandır ki, musiqili fikrin inkişafını ilk vaxtlardan stimullaşdırasınız. Lakin nəzərə almalısız ki, birinci ilin ilk altı ayı yaradıcılıq mərhələsi deyil, əsasən texniki hazırlıq mərhələsidir. Odur ki, məşqlərin məqsədi texniki hazırlıq olmalıdır. Hər bir qamma **məqsəddir**!

Proqrama nəzər saldıqda görmək olar ki, birinci ilin son iki ayından başlayaraq milli muğam ladları ilə tanış olacaqsınız. Bu, ikinci il proqramına hazırlıq dərsləri sayılır. Bu səbəbdən də muğam ladlarına keçid etməmişdən öncə klassik major və minor qammaları əsasında texniki hazırlığı sona çatdırmalı və yeni dərs ilinə tədricən hazırlaşmalısız. İkinci dərs ilində muğam dərsləri kifayət qədər geniş təşkil olunmuşdur. Dərin Azərbaycan muğamlarını daha mükəmməl öyrənmək üçün müəllimlərinizə və sərbəst şəkildə internet məkanına müraciət etməyiniz tövsiyə olunur!

İkinci dərs ilinin son iki ayından başlayaraq fərqli ladlara görə bass və akkordlarla tanış olacaqsız. Bu, üçüncü dərs ilinə hazırlıq dərsləri sayılır. Muğam dərslərinə nisbətən üçüncü dərs ilində müşayiət dərsləri daha lakonik təşkil olunub. Buna baxmayaraq üçüncü dərs ilində təşkil olunmuş harmoniyalara yiyələnən şagirdlərimiz müşayiət üçün kifayət qədər böyük bazaya sahiblənəcəklər. Proqramdakı müşayiət dərslərini mənimsəmiş şagirdlərin daha geniş müşayiət formalarını öyrənmək üçün müəllimlərinə və internet məkanına müraciət etməsi tövsiyə olunur. Müəllimlərin də üçüncü il proqramını tam mənimsəmiş şagirdlərə əlavə müşayiət üslubları öyrətməsi arzuolunandır.

**Tövsiyə:**

Müəllimlə və ya sərbəst məşğul olmağınızdan asılı olmayaraq, müşayət dərslərinin təşkili zamanı dərsdə göstərilmiş musiqini akkompanementsiz, solo ifa edərək sintezatorun yaddaşına qeyd etməyiniz tələb olunur. Bundan sonra müşayət dərslərinin tələbinə uyğun olaraq "harmoniyalar" qeyd edilmiş mahnının üzərində ifa olunmalıdır.

**Diqqət!**

Kitabın 3 tədris ili üçün təşkil olunmuş **"Dərslər"** bölməsində dərslərin yalnız adları göstərilmişdir. Dərslərin mövzuları isə kitabın birinci hissəsində **"Proqram"** bölməsində dərslərə uyğun olaraq ardıcıl təşkil olunmuşdur. Keçirilən dərsin adına istinad olaraq "Proqram" bölməsində müvafiq dərsi seçib, öyrənməyiniz tələb olunur.

Hazırki vəsaitin Proqramı dərslərin aşağıda göstərilmiş cədvəl üzrə təşkil olunmasını tələb edir:

| Dərs saatı | Həftə ərzində | Ay ərzində |
|---|---|---|
| 90 dəqiqə (bir saat yarım) | 2 dərs | 8 dərs |

Hər dərs ilinin sonunda şifahı imtahanla bərabər ifaçılıq bacarığı imtahanı təşkil olunmalıdır. Şifahi imtahan hər dərs ilinin sonuncu dərsində həyata keçirilir. Hər dərs ili üçün şifahi imtahanın təşkili aşağıdakı qaydada həyata keçirilir:

Birinci dərs ili imtahanı – ilin sonunda verilmiş suallardan hazırlanmış biletlər əsasında keçirilir.

İkinci dərs ili imtahanı – birinci və ikinci dərs ilinin suallarından hazırlanmış biletlər əsasında keçirilir.

Üçüncü dərs ili imtahanı – birinci, ikinci və üçüncü dərs illərinin suallarından hazırlanmış biletlər əsasında təşkil olunur.

Tədris vəsaiti ilə sərbəst çalışan hər kəsin bu qayda üzrə biletlər hazırlayıb özünə imtahan təşkil etməsi arzuolunandır.

İfaçılıq bacarığı imtahanında şagirdlərin 3 ya 4 müxtəlif janrda olan musiqilərdən bir kompozisiya hazırlayıb ifa etməsi tələb olunur. Müəllimlər şagirdlərə fərdi yanaşaraq bu imtahan üçün tapşırıqlar hazırlayırlar və imtahanın vaxtını bir həftə öncədən şagirdlərə bildirərək hazırlanmış tapşırıqları onlara təqdim edirlər.

Hazırki kitabdan istifadə edərək sintezatorda ifa etməyi sərbəst öyrənnmək istəyən musiqi həvəskarlarını "Modern Sintezator Kursu" adlı Youtube

kanalımıza dəvət edirik. Hazırki dərslik proqramı əsasında dərslərin ardıcıl təşkil olunmuş videoları Sizin üçün "virtual müəllim" rolunu oynayacaq.

**Əziz musiqi həvəskarları!**

Musiqinin fiziki ifadəsi yalnız səsdir. Biz musiqini beş duyğu orqanlarımızdan yalnız eşitmə duyğu orqanı vasitəsilə duya bilərik. Eşitdiyimiz musiqi Sizin daxilinizdəki musiqinin fiziki ifadəsidir. Musiqinin mənbəyi Sizin emosiyalarınız, hissləriniz, ümidləriniz, arzularınız, sevinciniz, qəminiz, düşüncələriniz, intellektiniz və daxilinizdə yaşanan ilahi və insani xüsusiyyətlərinizdir. Musiqi Sizin emosiyalarınızın səslər dilində ifadəsidir. Rəssam emosiyalarını rənglər dilində ifa edirsə, Siz emosiyalarınızı səslər dilində ifa edirsiniz. Daxili dünyanızı səslər dilində ifadə etmək prosesi ifaçılıq prosesidir. Bu da Sizin musiqi aləti ilə doğma münasibətinizdən əmələ gəlir. Odur ki, musiqi alətinizi çox sevin!

Sizə səmimi qəlbdən ecazkaz musiqi yaradıcılığı arzulayıram!

# PROQRAM

## Sintezator qarşısında düzgün oturuş və əllərin klaviatura üzərində düzgün qoyuluş qaydası

Sintezator və ya pianinoda ifa etməyi öyrənməyə başlamazdan öncə alətin arxasında düzgün oturuş qaydasını öyrənmək və buna vərdiş etmək lazımdır. Bu, hər musiqi alətində ifa etməyə şamil olunan texniki qaydadır. Musiqi alətində ifa etmək onunla doğma və yaxın münasibət qurmaq deməkdir. İfaçının musiqi aləti ilə qurduğu təmas ifanın keyfiyyətinə birbaşa təsir edir. Sevdiyi alətlə yaxın münasibətin formalaşması üçün ifaçının alətlə təması zamanı texniki qaydalara riayət etməsi vacib şərtdir. Bir tərəfdən ifaçının klaviatura arxasında düzgün oturuşu və əllərinin düzgün qoyuluşu yorulmadan, gərgin olmadan, komfortlu ifanı təmin edir, digər tərəfdən gözəl səhnə mədəniyyəti nümayiş etdirən etika qaydasıdır.



Şəkil 7

Sintezator ifaçısı və fortopiano ifaçısından eyni oturuş qaydası tələb olunur. Oturacağı klaviaturanın mərkəzinə yerləşdirmək lazımdır. Oturacağın ön və orta hissəsində əyləşərək qaməti düz və tonusda saxlamaq gərəkdir. Oturacağın bel hissəsinə söykənmək olmaz. Ayaqlar pedalların qarşısında rahat şəkildə çiyin bərabərliyində yerə elə qoyulmalıdır ki, hər anda pedallardan istifadə etmək rahat olsun. Çiyinlər təbii vəziyyətini saxlamalıdır. Nəzarət etmək lazımdır ki, ifa zamanı çiyinlər yuxarı qalxmasın. Dirsəkləri bədənə çox sıxmaq lazım deyil, həmçinin bədəndən çox aralamaq da olmaz. Dirsəklər və biləklər klaviatura səviyyəsində və ya bir az hündürdə tutulmalıdır. İfaçının qolu yüngül vəziyyətdə, biləyi elastik və çevik olmalıdır. İfaçılığa yeni

başlayanlarda bəzən bilək aşağı sıxılır və bütün əldə gərginlik yaşanır. İlk gündən nəzarətdə saxlayıb, gərəksiz gərginliyi aradan qaldırmaq lazımdır (şəkil 7).

Klaviatura üzərində barmaqların vəziyyəti bir neçə tələbə cavab verməlidir:

1) barmaqlar bir qədər yuvarlaq şəkildə olmalı, lakin çox qatlanmamalıdır;

2) klavişlərə barmaqların uc hissəsi toxunmalıdır;

3) barmaqlarda heç bir oynaq gərgin olmamalı, barmaqlar həzin axıcılıqla klavişlərdə rəqs etməlidir.



Şəkil 8

Çalışmaq lazımdır ki, barmaqlar ifa zamanı klaviaturanın kənarına deyil, qara dillərə yaxın yerləşsin. Musiqidə barmaqların adları rəqəmlərlə göstərilir. Barmaqların sıralanması hər iki əldə baş barmaqdan başlayır və birdən beşə sıralanır (şəkil 8).

# Müxtəsər musiqi nəzəriyyəsi

## Musiqi səsləri haqqında ümumi anlayış

**Səs** – fiziki hadisə olub elastik cisimlərin rəqsi hərəkəti nəticəsində əmələ gəlir. Əgər tarıma çəkilmiş hər hansı bir simi kaman və ya mizrab ilə hərəkətə gətirsək, görərik ki, sim titrəyəcək və öz ətrafında olan havanı dalğalandıraraq səs əmələ gətirəcək. Bu səs dalğaları dairəvi şəkildə olur. Fizikada səs bəhsini öyrədən **akustika** elminə görə bütün səsləri iki yerə bölmək olar: **musiqili və qeyri-musiqili səslər.**

Şırıltı, gurultu, tıqqıltı və s. səslər qeyri-musiqili səslərdir. Qeyri-musiqili səslərin zildən və ya bəmdən səslənməsini eşitmək olur, lakin onların yüksəsliyinin dəqiq ölçüsünü müəyyən etmək mümkün olmur.

Dəqiq ölçüsü müəyyən olunan yüksəkliyə malik səslərə isə musiqi səsləri deyilir ki, onlar 4 xüsusiyyətinə görə qeyri-musiqili səslərdən fərqlənirlər: **yüksəklik, qüvvə, tembr və ölçü.**

**Səsin yüksəkliyi.** Müxtəlif yüksəkliyə malik səslər musiqidə fərqli xarakterlərin yaranmasına səbəb olur. Məsələn, fortepianoda klaviaturanın sol tərəfində aşağı hissədə çalınan melodiya ağır xarakterli, orta hissədə çalınan melodiya insan səsini xatırladan xoş əhval-ruhiyyə, yuxarı hissədə çalınan melodiya isə quşların səsinə bənzər yüngül xarakterli musiqini xatırladır. Bu baxımdan fortepianodakı klaviaturanı şərti olaraq 3 hissəyə bölə bilərik ki, bunlara **registr** deyilir :

**Yuxarı registr, orta registr və aşağı registr.** Bir registrdən digərinə keçid tədricən və hiss olunmadan baş verir (şəkil 9).




Şəkil 9

Buna görə də registrlər arasında dəqiq sərhəd yoxdur, lakin registrlərin ayrılması musiqidə obrazların xarakterlərinin ifadəsinə təsir edir. Belə ki,

bəstəkar yaratdığı obraza uyğun registr seçir. Məsələn, Q.Qarayevin fortepiano üçün bəstələdiyi **"Fil və alabaş"** pyesi aşağı registrdə başlayr ki, bu da fil obrazının yaradılması üçün lazım olan ağır xarakteri ifadə edir. Pyesin ikinci hissəsi isə yuxarı registrdə alabaşın xarakterinə uyğun yüngül əhval-ruhiyyəni təsvir edir.

**Səsin qüvvəsi.** Musiqi səsləri həm də öz qüvvəsinə görə bir-birindən fərqlənir. Səsin qüvvəsi səs verən cismin amplitudasından, yəni onun rəqsi hərəkətindən asılıdır. Titrəyən cismin amplitudası nə qədər geniş olsa, səs də bir o qədər qüvvəli olar. Titrəyən cismin uzunluğu və eni dəyişərsə, həmin amplituda müxtəlif qüvvəyə malik səslər verə bilər. Buna görə də fortepianoda aşağı səslər üçün bir ədəd uzun və enli simdən istifadə edilir.

Səsin qüvvəsinin müxtəlifliyi musiqidə müxtəlif emosional əhval-ruhiyyə ifadə olunmasına xidmət edir. Belə ki, daha qüvvətli səs poetik əhval-ruhiyyəni, lirik səslər isə daha yumşaq və zərif səsləri ifadə edir. Səsin qüvvəsinin müxtəlifliyi **dinamik çalarlar** adlanır.

**Tembr.** Tembr səsin daha bir fərqləndirici xüsusiyyətidir. Tembr insan səsinə və hər hansı bir musiqi alətinə xas olan eyni yüksəklik və uzunluqda olan səslərin boya xüsusiyyətidir. İnsan səsi ilə, hər hansı musiqi aləti vasitəsiylə səslənən hər bir səs özünəməxsus fərdiliyə, xüsusiyyətə və tembrə malikdir. Yəni xüsusi təəssürat yaradır ki, bu da onu digər səslərdən ayırır. Belə ki, düzgün tapılmış tembr boyası səsə daha xüsusi xarakter verir və musiqi mövzusunun və ya musiqi əsərinin bədii məzmununun açılmasına xidmət edir. Məsələn, lirik məzmunlu mövzular orkestrdə adətən simli alətlərə həvalə edilir. Hər bir alətin özünəməxsus tembri vardır, hətta insan səsləri də tembrlərinə görə bir-birindən fərqlənir.

Operalarda müxtəlif surətlər müxtəlif səslərə – xarakterindən asılı olaraq müxtəlif tembrə xas olan səslərə həvalə edilir.

**Səsin ölçüsü.** Musiqi səsləri istənilən qədər uzun və istənilən qədər qısa çalına bilər. Səsin davam etməsi cismin rəqsi hərəkət müddətindən asılıdır. Kamanı bütün boyu ilə sim üstündə hərəkət etdirsək, səs uzun, az hərəkət etdirsək, səs qısa olacaq. Deməli, səsin ölçüsü onun uzunluğu və qısalığıdır ki, bu da onu fərqləndirən xüsusiyyətlərdən biridir.

# Sintezatorun istifadəsi üçün təlimat (1)

Müasir dövrümüzdə rəqəmsal elektronikanın son nailiyyətləri sayəsində sintezatorlar sürətlə inkişaf etməkdə və təkmilləşməkdədir. Bu inkişaf daha keyfiyyətli və təbii səs əldə etməyə yönəlib. Digər tərəfdən, təkmilləşməkdə olan rəqəmsal ekran, sadələşməkdə olan interfeys, böyüyən yaddaş, rahatlaşan funksionallıq və iş paneli alətlə işin operativliyini yüksəldir, ifaçının onunla ünsiyyətini maksimal dərəcədə komfortlu və məhsuldar edir. Sintezator alətinin bütün imkanlarını, üstünlüklərini, incəliklərini ilk dəfədən mənimsəmək mümkün deyil. Bu səbəbdən də bu kitabda (və sahib olduğunuz sintezatorun öz təlimat kitabında) göstərilən təlimatla yaxından tanış olun. Fərqli funsiyalarla tam tanış olmaq üçün fərqli terminləri mənimsəmək və nəhayət aləti daha peşəkar idarə etmək üçün mütəmadi olaraq təlimata müraciət etmək tövsiyə olunur.

Alətin istifadəsini təlimata uyğun olaraq mənimsəmiş ifaçı üçün musiqi yaradıcılığı komfortlu, zövqlü və universal yaradıcılıq prosesinə çevrilir.

# Major və minor qammalar sistemi

**Diqqət!**

Major və minor qammalar sistemi musiqinin əsasında duran ən vacib iş prinsipidir! Hər major qammanın sonunda mötərizədə qara şriftlə onunla paralel olan minor qammanın adı göstərilmişdir. Müəllimlə və ya sərbəst məşğul olmağınızdan asılı olmayaraq, major və minor qammaların bir-biri ilə necə paralellik təşkil etdiyini ilk vaxtdan öyrənməyiniz və onları vahid sistem kimi mənimsəməniz vacib şərtdir!



# Azərbaycan muğamları



Seyid Xan Şuşinski (soldan ikinci) öz ansamblı ilə. 1916-cı il.

## Azərbaycan Muğamları haqqında

Muğam Azərbaycan klassik xalq yaradıcılığı musiqisinin əsas janrıdır. Bu söz ərəb dilində işlənən "məqam" sözündən yaranıb. Muğam təxminən XIV əsrə qədər Yaxın Şərq xalqlarının vahid musiqi janrı olub, lakin sonralar baş verən ictimai-siyasi dəyişikliklər səbəbindən xalqlara uyğun parçalanıb.

Muğam janrı Şərq xalqlarının mədəni həyatında, onların mənəvi dünyasının formalaşmasında həlledici rol oynadığı üçün bu ölkələrin musiqi salnaməsində dərin izlər buraxmışdır.

Muğamlar əsasən ərəb və fars sözləri ilə, bəzən onu yaxşı ifa edən şəxsin və həmin muğamın yarandığı yerin adı ilə adlandırılmışdır. Məsələn, «Azərbaycan», «Nişapur», «Zabul», «Mavəraənnəhr», «Bağdadi», «Kürdi», «Şirvani», «Qarabaği», «Qacarı», «Osmani», «Şah Xətai», «Kərküki», «Raki-hindi» və s. Bir çox muğam adlarının müxtəlif təbiət hadisələri ilə də bağlı olduğu göstərilir. Məsələn, «Rast» muğamına ona görə bu ad verilmişdir ki, səslərin əksəriyyəti əsas pərdə ilə rastlaşır. «Rast» bahar küləyinin hərəkətindən götürülmüşdür. «Rəhavi» Rəhabiyyə qəsəbəsinin adı ilə bağlıdır.

Buna «Rəhab» da deyirlər. «Rəhabi» adını yağış suyunun damcılarının tökülməsinə bənzədənlər də vardır. «Çahargah» (farsca hərfən – dörd sözündən) dörd nəğmə və guşələrlə təkmilləşdiyi üçün belə adlandırılmışdır, göy guruldamasından götürülmüşdür. «Dügah» fəvvarədən axan sudan götürüldüyü üçün hər tərəfə meyl edir. «Humayun»u quşların qanad çalmasından, «Nəva»nı aşiqlərin ürəkyandırıcı naləsindən, «Mahur»u suda üzməkdən, «Şahnaz»ı bülbüllərin aşiqanə sədasından, «Üşşaq»ı qorxaraq yuvasından çıxdıqdan sonra sakit-sakit uçan quşların hərəkətindən, «Müxalif»i arının təbiətindən, «Məğlub»u şiddətli selin gəlməsindən, «Üzzal»ı isə meteoritin axmasından götürmüşlər.

Azərbaycanda 7 əsas, 3 köməkçi muğam var. Əsas muğamlar "Rast", "Şur", "Segah", "Çahargah", "Bayatı-Şiraz", "Şüştər" və "Humayun"dur. Hal-hazırda Azərbaycanda xanəndələr muğamı üç hissəyə bölürlər:

1) əsas muğamlar;

2) kiçik həcmli muğamlar;

3) zərbi muğamlar.

Bundan başqa «Rast» ailəsinə («Mahur-hindi», «Orta Mahur», «Bayatı-Qacar», «Dügah») və «Segah»ın müxtəlif variantlarına («Segah Zabul», «Mirzə Hüseyn Segahı», «Xaric segah» və s.) daxil olan muğamlar da vardır.

Dahi bəstəkar Üzeyir Hacıbəyli əsas muğam dəstgahlarının psixoloji-emosional təsirindən bəhs edərək qeyd edir ki, «Rast» dinləyicilərdə mərdlik və gümrahlıq hissi, «Şur» şən, lirik əhval ruhiyyə, «Segah» məhəbbət hissi, «Şüştər» dərin kədər, «Çahargah» həyacan və ehtiras, «Bayatı-Şiraz» qəmginlik, «Humayun» isə «Şüştər»ə nisbətən daha dərin bir kədər hissi oyadır.

7 noyabr 2003-cü il tarixində Azərbaycan muğamı UNESCO tərəfindən Bəşəriyyətin Qeyri-Maddi İrsinin şah əsəri elan olunmuşdur.

# Azərbaycan muğam ladları, şöbə, rəng və təsniflərinin müxtəsər şərhi

Şərq musiqisini ağuşuna almış muğamın tədrisi ilk dəfə olaraq bu kitabda sintezator kursu üçün sadələşdirilmiş, ixtisara salınmış formada tətbiq olunur. Bununla belə bu kitabda sistemləşdirilmiş muğam tədrisi tələbənin böyük Azərbaycan muğamlarının hər biri ilə yaxından tanış olmasına kömək edəcək, tələbəyə hər muğamın psixoloji-emosional təsirini özünün və başqa musiqiçilərin ifasında dərindən hiss etməyə şərait yaradacaq. Sintezator kursu üçün nəzərdə tutulmuş muğam tədrisi proqramı muğamların həcminə görə hər muğamdan iki, üç və ya dörd şöbə və hər şöbəyə uyğun bir rəng və bir təsnifi əhatə edir.

# Müşayiət dərsləri

## Harmoniyalar və akkordlar üçün sadələşdirilmiş məşğələlər sistemi

# D Ə R S L Ə R

## Birinci dərs ili

### I Ay

### Dərs 1

Musiqi səsləri haqqında ümumi anlayış (müxtəsər musiqi nəzəriyyəsi)

Sintezator arxasında düzgün oturuş və əllərin klaviatura üzərində düzgün qoyuluş qaydası

Qanon 1

# Azərbaycan bəstəkarları

Musiqi ruhumuzun qidasıdır. Bu qeyri-maddi müqəddəs nemət görkəmli şəxsiyyətlərin, ünlü sənətkarların qəlblərinin dərinliyindən saf bulaq kimi süzülüb gəlir, bizi yaşadır! Təəssüf olsun ki, dünyanın bir çox ölkəsində olduğu kimi, doğma Azərbaycanımız da demokratiyaya qədəm qoyduqdan sonra ölkədə dağılmış musiqi senzurasının bərpası bu günə kimi uzadılır! Belə mühitdə mədəniyyət xadimləri, musiqiçilər xalqın musiqi tərbiyəsinə, alicənab musiqi zövqünə cavabdeh olmalı ikən musiqiçilərin məsuliyyətsizliyi ucbatından Azərbaycan xalqının nəcib ruhuna, mədəniyyətinə yaraşmayan əcaib, qeyri-etik musiqi formaları peyda olmağa başladı və ölkənin dörd bir yanına yayıldı. Son 20 ildə bu acı tendensiya xalqın musiqi zövqünü korladı. Aşağıdakı siyahıda Azərbaycanın bir çox görkəmli bəstəkarları haqqında qısa məlumatlarla Sizi tanış edirik. Siyahıda yer almış bu dahi şəxsiyyətlərin Azərbaycan mədəniyyəti və musiqisi üçün zəhmətləri misilsizdir.

Əziz dost, Sizi israrla nəcib Azərbaycan musiqisinin banilərini tanımağa, onların misilsiz mədəni irsinə varis çıxmağa, yüksək musiqi tərbiyəsi üçün məsuliyyətli olmağa dəvət edirik!

**Hacıbəyli Üzeyir Əbdülhüseyn oğlu (18.9.1885, Ağcabədi – 23.11.1948, Bakı) –** Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqisinin və milli operasının banisi. Şərqdə ilk operanın yaradıcısı. SSRİ xalq artisti (1938), prof. (1940), Azərbaycan EA akad. (1945). Stalin mükafatı laureatı (1941, 1946).

Azərbaycan Bəstəkarlar İttifaqının sədri (1938–48), Azərbaycan Dövlət Konservatoriyasının rektoru (1928–29; 1939–48), Azərbaycan EA İncəsənət İnstitutunun direktoru (1945–48) olmuşdur.

“Leyli və Məcnun” (1908), “Şeyx Sənan” (1909), “Rüstəm və Söhrab” (1910), “Şah Abbas və Xurşid Banu” (1912), “Əsli və Kərəm” (1912), “Harun və Leyla” (1915) muğam operalarının, “Ər və arvad” (ilk tamaşası 1910), “O olmasın, bu olsun” (ilk tamaşası 1911), “Arşın mal alan” (1913) musiqili komediyalarının müəllifidir. Onun digər əsərlərinə “Aşıqsayağı” (1931), M.F.Axundova həsr olunmuş “Ölməz sənətkar” (1938), “Çağırış” , “Yaxşı yol”, “Ananın oğluna nəsihəti”, “Şəfqət bacısı”, “Döyüşçülər marşı” , “Sənsiz” (1941) və “Sevgili canan” (1943) romansları daxildir.

## İstifadə edilmiş ədəbiyyat

**Nəşrlər:**
Nazim Bağırov, Elementar musiqi nəzəriyyəsi, Bakı: “Maarif” nəşriyyatı, 1992, 266 səh.

Üzeyir Hacıbəyli, Azərbaycan xalq musiqisinin əsasları, Bakı: “Yazıçı” nəşriyyatı, 1985, 154 səh.

Rafiq Babayev, Min bir mahnı kitabı, Bakı: “Min bir mahnı” nəşriyyatı, 2007, 624 səh.

**İnternet resursları:**
Məktəblinin elektron musiqi kitabxanası, sayt ünvanı: http://mk.musigi-dunya.az/index2.html)